www.vet.gov.az/az/content/news/506

**təsdiq edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 2003-cü il fevralın 21-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Protokol" **təsdiq edilsin.**
2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən protokolun həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 oktyabr 2003-cü il
№ 1362

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında
PROTOKOL

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq Nazirliyi,
iki ölkə arasında baytarlıq sahəsində əməkdaşlığın əsasını qoymaq və onu inkişaf etdirmək, heyvan, heyvan mənşəli məhsullar, heyvanların genetik məhsullarının mübadiləsi məqsədi ilə,
aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə heyvan xəstəliklərinin baş verməsini və yayılmasını aradan qaldırmaq və istehlakçıları yüksək keyfiyyətli ət və heyvan mənşəli məhsullarla təmin etmək məqsədi ilə heyvanların sağlamlığı, ət və heyvan mənşəli məhsulların gigiyenası sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 2

Bu Protokol əsasında Tərəflər üzərlərinə aşağıdakı öhdəlikləri götürürlər:
1. Baytarlıq sahəsində, xüsusilə aşağıdakı məsələlərlə bağlı elmi və texniki sənədlərin mübadiləsini təmin etmək:
yoluxucu xəstəliklərlə bağlı vəziyyət;
heyvanların kəsilməsi, ət və heyvan mənşəli məhsulların hazırlanması və nəql edilməsi.
2. Bir-birinə heyvanların sağlamlığı, ət və heyvan mənşəli məhsulların gigiyenası, işçilərin ixtisaslarının artırılması sahəsində qarşılıqlı mübadiləsini təmin etmək.
3. Özəl sektorla, xüsusilə də baytarlıq mütəxəssisləri ilə iş də daxil olmaqla, mərkəzdə olduğu kimi, yerlərdə də baytar xidmətləri strukturunun yaradılması və işləməsi sahəsində təcrübə və fikir mübadiləsini təmin etmək.

Maddə 3

Tərəflər qarşılıqlı şəkildə və dərhal bir-birini Beynəlxalq Epizootik Büronun, Beynəlxalq Baytarlıq Məcəlləsinin «A» siyahısında olan hər hansı bir xəstəliyin, eləcə də Tərəfləri maraqlandıra biləcək hər hansı başqa yoluxucu xəstəliyin əmələ gəlməsi barədə məlumatlandırırlar. Bu halda, xəstəliyin əmələ gəldiyi yer və onun miqyası, epidemioloji göstəriciləri, eləcə də xəstəliyə nəzarət və onun aradan qaldırılması üçün görülmüş tədbirlər barədə Tərəflər bir-birinə öz təşəbbüsü ilə məlumat verir.

Maddə 4

Tərəflər qarşılıqlı razılaşma ilə, illik proqram əsasında, bir-birinə nümayəndə heyəti göndərə, işçi qrupları yarada, öyrənmə səfərləri, təcrübələr və bu Protokolun yerinə yetirilməsini asanlaşdıracaq hər cür tədbirlər təşkil edə bilər. Bu cür tədbirlərin təminatı Tərəflərin imkanları əsasında müəyyən edilir.
Tərəflər xüsusi məsələlərlə bağlı da razılaşmalar imzalaya bilərlər. Bununla bağlı, Bakıda 2001-ci il dekabrın 1-də və 2002-ci il dekabrın 2-də Tərəflər arasında imzalanmış Baytarlıq Sertifikatları bu Protokola qoşulmuşdur və onun ayrılmaz tərkib hissəsini təşkil edir.

Maddə 5

Bu Protokolun təfsiri və yerinə yetirilməsinə dair mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcək.

Maddə 6

Bu Protokola Tərəflərin razılığı ilə, onun tərkib hissəsi olan ayrı-ayrı protokollarla dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Protokol Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə toxunmur.

Maddə 8

Bu Protokol imzalandığı gündən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanır və Tərəflərdən biri onu ləğv etmək barədə 6 ay əvvəl yazılı müraciət etməzsə, qüvvədə qalır.
Bakı şəhərində, 2003-cü il fevralın 21-də fransız və Azərbaycan dillərində, hər ikisi eyni qüvvəyə malik olmaqla, hər dildə iki nüsxədə imzalanmışdır.

**Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq Nazirliyi adından**

**Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq naziri əvəzinə Fransanın Azərbaycandakı səfiri xanım Şantal PUARE**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi adından**

**Kənd Təsərrüfatı naziri cənab İrşad ƏLİYEV**